# Laçında xəyallara sığmayan qələbə

**Dağların sinəsi üstündə, gen dərələrin əhatəsində yerləşən Laçın aurası və görkəmi ilə bu yurda səfər edənləri özünə heyran edir, təbiətin füsunkar guşəsindən ayrılmaq istəmirsən. Burada hava çox safdır, ecazkar gözəllik insanın ruhunu oxşayır. Laçına qürurla səfər edirik, hər dəfə də düşünürəm ki, elə bil dağların əzəməti daha da artıb, sıldırım qayalar bir-birinə sarılıb, şehli çəmənlərin, çiçəklərin ətri-rayihəsi ətrafa yayılıb.**

Quruculuğun və dirçəlişin nəbzi döyünən Laçının keşməkeşli tarixi olub, 30 ilə yaxın erməni işğalı altında qalıb, faşist xislətli hayların murdar ayaqları qəlbinə neştər kimi sancılıb. Düşmən ölkə 1992-ci il mayın 18-də mühüm strateji mövqedə yerləşən Laçın rayonunu işğal edərək yerli əhaliyə qarşı etnik təmizləmə həyata keçirib. Erməni işğalı nəticəsində 300-dən artıq hərbi və mülki şəxs həlak olub və itkin düşüb. Həmin vaxt rayonun əhalisi respublikanın 57 şəhər və rayonunda müvəqqəti məskunlaşıb. Əhəmiyyətli geostrateji mövqeyə malik Laçının işğalı yalnız Azərbaycan iqtisadiyyatına deyil, mədəniyyətimizə, tarixi-mədəni irsimizə də ciddi ziyan vurub. Erməni işğalı nəticəsində 54 dünya, 200-dən çox yerli əhəmiyyətli tarixi abidə vandalizmə məruz qalıb.

**(davamı 8-ci səhifədə)**




HADİSƏLƏR KONTEKSTİNDƏ




# Laçında xəyallara sığmayan qələbə

**(əvvəli 1-ci səhifədə)**

Haqsızlığı və ədalətsizliyi Qalib Ali Baş Komandan İlham Əliyev yaratdığı Azərbaycan Ordusu ilə aradan qaldırdı, separatçıların başları əzildi, düşmənin ordusu tar-mar edildi. Nadir gözəlliyi, relyefi, havası, mineral suları ilə məşhur olan Laçın misilsiz qələbənin, qürurun, məğrurluğun, quruculuğun ahəngi ilə nəfəs alır.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın həm ərazi baxımından, həm də təbii ehtiyatları və aqrar potensialı ilə ölkə iqtisadiyyatında mühüm yer tutacaq. Məhz buna görə də Laçın rayonunun işğaldan azad edilməsindən az sonra Qalib Ali Baş Komandan İlham Əliyev rayona səfər edərək burada xüsusi proqram əsasında aparılacaq infrastruktur layihələrin təməlini qoyub. Qeyd edək ki, Qarabağda və Şərqi Zəngəzurda gerçəkləşdirilən dövlət əhəmiyyətli layihə və proqramlara, çoxyönlü tədbirlərə Prezident İlham Əliyev özü nəzarət edir. Dövlət başçısının bildirdiyi kimi: "Müharibə başa çatandan dərhal sonra bütün bu işlərə start verildi. Çox böyükhəcmli bir işdir. Dörd Lüksemburq boyda ərazini biz sıfırdan tikməliyik, qurmalıyıq. Çünki mənfur düşmən torpaqlarda hər şeyi, bütün binaları dağıdıb. İndi bunu bütün xarici qonaqlar da görürlər. Öz gözləri ilə erməni vəhşiliyini görürlər. Bu, misli görünməmiş vəhşilikdir. Dünya tarixində bir çox müharibələr olub. Ancaq bu qədər qəddarlıq, bu qədər düşmənçilik, məncə, dünya müharibə tarixində olmayıb. Hətta İkinci Dünya müharibəsi ilə müqayisə etsək, o vaxt belə vəhşiliyə yol verilmirdi, dini abidələr dağıdılmırdı".

Münaqişənin həll edilməsi ilə bağlı aparılan danışıqlarda Ermənistan tərəfi iddia edirdi ki, Laçın rayonu onlara dəhliz kimi verilməlidir. Ermənipərəst bəzi Qərb dövlətləri, ən çox da Fransa bu ədalətsiz mövqeyi dəstəkləyir, ermənilərə şirin vədlər verirdilər. Məhz bunun nəticəsində də ermənilər Laçın rayonunda çox ciddi məskunlaşma aparmışdılar. Saxta və cəfəng xəyallarla yaşayan ermənilərdə belə bir fikir olub ki, Laçın rayonu Ermənistana qalmalıdır. Yaxşı bir məsəl var, ac toyuq yuxusunda darı görər. Tarix və zaman göstərdi ki, ermənilər həmişə xam xəyalların əsiri olublar, "dənizdən-dənizə" xülyasına qapılıblar, Azərbaycan torpaqları hesabına "dövlət" qurmaq xəstəliyinə düçar olublar. Bütün bu xəstə və əsası olmayan xəyallara və erməni mifinə qüdrətli Azərbaycan ordusu birdəfəlik son qoydu.

Ermənistanın işğalı illərində laçınlıların yaşadıqları bütün kədər və üzüntülər artıq geridə qalıb. Digər azad edilmiş ərazilərimiz kimi, Laçının da yeni dövrü başlayıb. Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 2021-ci il fevralın 14-də Laçın rayonuna səfəri zamanı Güləbird kəndində Azərbaycan bayrağını qaldırıb. Dövlətimizin başçısı uzun illər ATƏT tərəfindən aparılan danışıqlara işarə edərək deyib ki, həyat göstərdi ki, biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik. Laçın rayonunu qaytarmaq fikirləri belə yox idi onların. Biz gəldiyim yolla gələrək, yol boyunca yerləşən bütün rayonları, kəndləri, şəhərləri azad edərək bax, buralara gəldik. Laçın rayonunun cənub hissəsini işğalçılardan azad etdik, Güləbird kəndini azad etdik. Burada Səfiyan və Türklər kəndləri yerləşir, onları da azad etdik və Laçın dəhlizinə nəzarət etmək üçün hərbi plasdarm yaratdıq və artıq Laçın dəhlizi atəşimiz altında idi. Faktiki olaraq bu istiqamətdən hərəkət edərək biz strateji əməliyyatlarımızı aparmışdıq.

Döyüş xronologiyasına nəzər salanda aydın olur ki, Azərbaycan Ordusu Laçın rayonuna oktyabrın 22-də cənubdan həyata keçirilən əməliyyat zamanı daxil olub. Xaotik şəkildə şimala doğru geri çəkilən erməni ordusu yollara mina döşəyərək və digər mühəndis qurğuları ilə hücumu ləngitməyə çalışırdı. Azərbaycan Ordusunun bölmələri Ermənistan sərhədinə 5 km, Laçın-Şuşa yoluna isə 20 km məsafədə yaxınlaşmışdı. Bu istiqamətdəki bölmələrin əsas hədəfi Ermənistan ilə Qarabağı birləşdirən Laçın dəhlizinin tutulması idi. Dəhlizin tutulması Qarabağdakı erməni qruplaşmasının taleyini həll edirdi. Təhlükəni başa düşən erməni rəhbərliyi Qubadlıdakı əsas qüvvələri şimala doğru çəkdi. Vəziyyət mürəkkəb olduğu üçün Ermənistanın keçmiş müdafiə naziri David Tonoyan oktyabrın 23-ü Xankəndiyə gəldi və artıq oktyabrın 24-də Azərbaycan bölmələri şimalda ciddi müqavimətlə rastlaşdılar. Ermənistan hərbçiləri dəhliz boyu kəndlərə çox sayda "Qrad", minaatan və artilleriya bölmələri yerləşdirirdi. Buna baxmayaraq, 2 gün davam edən döyüşlərdən sonra şərq istiqamətdə yerləşən Türklər kəndini azad edən qəhrəman oğullarımız Səfiyan kəndinə yaxınlaşdılar. Oktyabrın 26-da Azərbaycan bölmələri ilə erməni ordusu arasında Laçının Səfiyan kəndi ətrafında döyüşlər başladı. Birbaşa dəhlizə yaxınlaşmaq mümkün olmadığı üçün Azərbaycan bölmələri Səfiyan kəndinin şərq istiqamətində hərəkət etdilər. Həmin gün Laçının Güləbird kəndindən hücuma keçən ordu bölmələri Quşçular, Aşağı Fərəcan və Fərəcan kəndini işğaldan azad etdi. Bu istiqamətdən şimala doğru isə hərəkət etmək mümkün deyildi. Laçın dəhlizi çox güclü qorunduğu üçün Azərbaycan bölmələri Laçın-Şuşa yolunu ən az qorunan hissəsindən keçmək üçün dağlarda sızma əməliyyatlarına başladı. Köhnəkənd və Qışlaq yaşayış məntəqələri isə əməliyyatlar zamanı Azərbaycan ordusu tərəfindən azad edilən Laçın rayonuna daxil olan sonuncu kəndlər idi. Noyabrın 10-a qədər Azərbaycan ordu bölmələri Laçına girmək üçün daha bir cəhd etdi. Noyabrın 5-də edilən cəhd Laçının Turablı kəndi istiqamətində texnikaların aşkarlanması və tamamilə məhv edilməsi ilə nəticələndi. Beləliklə, oktyabrın 22-dən noyabrın 10-a qədər olan döyüşlərdə qəhrəman ordu bölmələrimiz Laçının 8 kəndini işğaldan azad etdilər.

Döyüş meydanında Ermənistan ordusunu məğlubiyyətə uğradan qəhrəman silahlı qüvvələrimizin bölmələri Laçın rayonunun bir çox yaşayış məntəqələrini savaşaraq, qan tökərək, düşməni diz çökdürərək azad etdilər. Rayonun işğalda qalan digər əraziləri üçtərəfli Bəyanata görə işğalçılardan təmizləndi, Laçında qeyri-qanuni məskunlaşdırılmış ermənilər əzəli torpaqlarımızdan qovuldular. Ağır məğlubiyyəti sınıra bilməyən Ermənistan havadarlarının təhriki ilə ordu bölmələrimizin yerləşdiyi mövqelərə hücum edərək artilleriya qurğularından atəş açdılar. Şəhidlər verdik, yaralılarımız oldu. İrəliləməyə cəhd edən təxribatçı erməni ordusunun hücumu dayandırıldı və silahlı qüvvələrimizin bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətə götürüldü. Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı dəstələrinin bir neçə döyüş mövqeyi dağıdıldı, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirildi. 44 gün davam edən Vətən müharibəsində torpaqlarımızı işğalçılardan azad edən müzəffər Azərbaycan Ordusu 2020-ci il noyabr ayının əvvəlində Laçın rayonunun bir çox yaşayış məntəqələrini azad edərək Ermənistanla Xankəndini birləşdirən Laçın dəhlizinə nəzarəti ələ keçirdi. 2020-ci il noyabr ayının 10-da Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli Bəyanata əsasən 2020-ci il dekabrın birində Laçın rayonu 28 ildən sonra bir güllə atılmadan işğaldan azad edildi.

2022-ci il avqustun 26-da isə Laçın şəhərində, Zabux və Sus kəndlərində qeyri-qanuni məskunlaşan ermənilər bu ərazilərdən köçürüldülər. Otuz ilə yaxın boş və mənasız danışıqlarla baş qatan, erməni işğalını dondurmağa çalışan, ermənilərin torpaqlarımızda qanunsuz məskunlaşmasına göz yuman həmsədr dövlətlərin ikili siyasətinə son qoyan Azərbaycan beynəlxalq qanunları və tarixi ədaləti özü öz gücünə bərpa etdi. Vətən müharibəsində əldə etdiyimiz qələbə nəticəsində imzalanmış üçtərəfli Bəyanata əsasən Laçın, Kəlbəcər və Ağdam rayonları işğalçılardan təmizləndi. Lakin ermənilər hər üç rayonun ərazisini başdan-başa minalarla çirkləndirərək azərbaycanlıların doğma yurd yerlərinə qayıdışına əngəl oldular. Paxıl və xəbis, faşist təfəkkürlü ermənilərin bəd əməlləri qəhrəman minaaxtaranlarımız tərəfindən aradan qaldırılır, on minlərlə ölüm tələsi zərərsizləşdirilir. Ardınca isə azad olunmuş torpaqlarımızda, o cümlədən Laçın rayonunda geniş tikinti-abadlıq həyata keçirilir, infrastruktur layihələri icra olunur. Dövlətimizin başçısı İlham Əliyevlə birinci xanım Mehriban Əliyevanın 2021-ci avqust ayının 16-da Laçına səfəri zamanı Qorçu kəndində təməlini qoyduqları Laçın Beynəlxalq Hava Limanı ilk növbədə, bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək, turizm potensialının artırılmasına səbəb olacaq, ətraf ərazilərə hava nəqliyyatı ilə gediş-gəliş daha da asanlaşacaq.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq 2023-cü il mayın 28-də keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın şəhərinə qayıdışı başlanıb və dövlətimizin başçısı yeni evlərin açarlarını sakinlərə şəxsən özü təqdim edib. Bu adi açarlar deyil, bu dövlət müstəqilliyimizin möhkəmləndirilməsinin, hərbi gücümüzün, xalq lider birliyinin, fədakarlığın, qələbənin uğur açarıdır. Prezidentin Laçına köçürülən sakinlərlə görüşündə yurda dönüş həyəcanını yaşayan yaşlıların da, uşaqların da, cavanların da minnətdarlıq ifadə edən sevinc göz yaşları, otuz ildən sonra dövlət tərəfindən tikilən yeni və modern evlərində gecələmək hissi, dillərdə dolaşan dualar sözə sığan deyil, bu bir möcüzə, həm də bir reallıqdır. Keçmiş məcburi köçkünlərin könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurda qayıdışı dövlət siyasətinin mühüm prioritetidir. İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsi istiqamətində görülən işlər getdikcə sürətlənir, Böyük Qayıdış proqramı uğurla icra olunur. Arzular, ürək sözləri, xoş duyğular, minnətdarlıq hər bir laçınlının sonsuz sevincini ifadə edir, onlar otuz ildən sonra doğma yurdlarına qayıtdıqları üçün çox qürurludurlar, ayaq basıb öpdükləri torpağın, onu azad edən oğulların, şəhidlərin, qazilərin qarşısında baş əyirlər.






Laçına qayıdan əhalinin böyük əksəriyyəti işlə təmin olunub, rayonda bir sıra müəssisə yaradılıb. Onların ən müasiri və böyüyü Zerti Aqro-Sənaye parkıdır. Hazırda burada 10-a yaxın müəssisə fəaliyyət göstərir. Həmin müəssisələrdə 250-yə yaxın işçi çalışır ki, onların hamısı laçınlılardır. Aqro-Sənaye Parkında gələcəkdə bütün müəssisələrin fəaliyyətə başlaması ilə 1200 iş yerinin açılması gözlənilir. Aqrar-sənaye parkında Laçın üçün ənənəvi olan heyvandarlığın inkişafı üçün sağlam yem istehsalı müəssisəsi də yaradılıb. Laçında yeni müəssisələrin yaradılmasında innovativ texnologiyaların və avtomatlaşdırılmış istehsalat sahələrinin tətbiq olunması diqqətdə saxlanılır.

Həkəri çayının zümzüməsi altında Laçın ecazkar bir görkəm alır, burada regionda analoqu olmayan modern evlər tikilib, geniş küçələr, parklar salınıb, bir sözlə, bütün infrastruktur böyük zövqlə yaradılıb. Daha da gözəlləşən və abadlaşan Laçın şəhərinə köçən sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirirlər. Ağıla, düşüncəyə, xəyallara sığmayanı, mümkün olmayanı mümkün edən, dörd bir tərəfdən keçilməz sədləri aşan, gözlənilməz zərbələrlə düşməni pərən-pərən salan, diplomatiya mübarizəsində Prezidentin fədakar mübarizəsini döyüş meydanında yerinə yetirən qəhrəman oğulların şücaəti Qarabağın və Şərqi Zəngəzurun tilsimlənmiş taleyini dəyişdi. Misli görünməyən, dünyanı heyrətə salan, düşmənlərimizə gözdağı olan parlaq Qələbə şəhidlərimizin qanı ilə daha da müqəddəsləşdi.

**Salman ALIOĞLU,**
**"Respublika".**